# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1242; 2012, № 3, maddə 260; 2013, № 3, maddə 346; 2016, № 1, maddə 181; 2019, № 1, maddə 147, № 5, maddələr 937, 955, 977) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "I. Büdcədən maliyyələşdirilən qurumlar" bölməsinin 32-ci hissəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bölməyə aşağıdakı məzmunda 33-44-cü hissələr əlavə edilsin:

"33. "Bakı Gənclər evi" sosial xidmət müəssisəsi;
34. "Göyçay Gənclər evi" sosial xidmət müəssisəsi;
35. "Yevlax Gənclər evi" sosial xidmət müəssisəsi;
36. "Qazax Gənclər evi" sosial xidmət müəssisəsi;

37. “Masallı Gənclər evi” sosial xidmət müəssisəsi;
38. “Qobustan Gənclər evi” sosial xidmət müəssisəsi;
39. “Göygöl Gənclər evi” sosial xidmət müəssisəsi;
40. “Beyləqan Gənclər evi” sosial xidmət müəssisəsi;
41. “Ucar Gənclər evi” sosial xidmət müəssisəsi;
42. “Şəmkir Gənclər evi” sosial xidmət müəssisəsi;
43. “Ağstafa Gənclər evi” sosial xidmət müəssisəsi;
44. “Biləsuvar Gənclər evi” sosial xidmət müəssisəsi.”.

2. “II. Təsərrüfathesablı qurumlar” bölməsi üzrə:

2.1. 5-ci hissədə “Stend Atıcılığı üzrə İdman Kompleksi” sözləri “Bakı Atıcılıq Mərkəzi” MMC” sözləri ilə əvəz edilsin;

2.2. 48-ci hissə ləğv edilsin;

2.3. 58-ci hissənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 59-66-cı hissələr əlavə edilsin:

“59. “Bərdə Olimpiya İdman Kompleksi” MMC;
60. “Lənkəran Olimpiya İdman Kompleksi” MMC;
61. “Beyləqan Olimpiya İdman Kompleksi” MMC;
62. “Tərtər Olimpiya İdman Kompleksi” MMC;
63. “Yardımlı Olimpiya İdman Kompleksi” MMC;
64. “Saatlı Olimpiya İdman Kompleksi” MMC;
65. “Goranboy Olimpiya İdman Kompleksi” MMC;
66. “Suraxanı Şahmat Məktəbi” MMC.”.

3. Aşağıdakı məzmunda III bölmə əlavə edilsin:

“III. Publik hüquqi şəxslər:

1. Azərbaycan Milli Antidopinq Agentliyi;
2. Milli İdman Tibb və Reabilitasiya İnstitutu.”.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 15 iyul 2022-ci il

№ 265